# Harutyunyanın etirafları Ermənistanın hərbi cinayətlərinin ifşasıdır

**Bakıda məhkəməsi davam edən keçmiş quldur və separatçı rejimin başçısı Arayik Harutyunyan ifadəsi zamanı Azərbaycana qarşı törədilən hərbi cinayətlərin Ermənistan tərəfindən həyata keçirildiyini etiraf edib. O, bütün əmrləri rəsmi İrəvandan aldıqlarını dilə gətirib və hətta özünün müharibənin dayandırılması ilə bağlı baş nazir Nikol Paşinyana etdiyi müraciətlərinin də havadan asılı qaldığını söyləyib. Bununla o, işğalçı Ermənistanın 2020-ci il müharibəsində də savaşın davam etdirilməsində birbaşa maraqlı olduğunu bildirib.**



Beləliklə, məhkəmə prosesində Arayik verdiyi bu ifadə ilə Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi işğalçılıq siyasətini və hərbi cinayətlərini ifşa edib.

Azərbaycan hər zaman bəyan edib ki, 30 il ərzində həyata keçirilən işğal siyasəti, Qarabağda qanunsuz qurumun yaradılması və digər bu kimi mənfur əməllər məhz Ermənistan dövləti tərəfindən həyata keçirilib və bu cinayət əməllərinə görə birbaşa rəsmi İrəvan məsuliyyət daşıyır. O da əbəs deyildi ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 23-də Ağdam Cümə məscidinin qarşısındakı çıxışında bəyan etmişdi ki, biz Koçaryan, Sarkisyan ordusunu məhv etmişik.

## Törətdikləri cinayətlərin cəzasını çəkəcəklər

Azərbaycan Qarabağ zəfəri ilə qondarma dövlət olan Ermənistanın sabiq rəhbərləri Levon Ter-Petrosyana, Serj Sarkisyana və Robert Koçaryana qalib gəldi. "Dəmir yumruq" İkinci Qarabağ müharibəsində və antiterror əməliyyatları zamanı işğal və təcavüz siyasəti yürüdən bu üç faşist sabiq prezidentin və onların ətrafında məğlubedilməz mif yaratdıqları ordularının (əslində, fərari ordu) başına zərbə endirdi.

Torpaqlarını işğaldan qurtaran və suverenliyini tam təmin edən Azərbaycan törətdikləri əməllərə görə təqsirləndirilən erməniəsilli şəxsləri cinayət məsuliyyətinə cəlb edib. Bu sırada Koçəryan, Sarkisyan, Ter-Petrosyan və başqaları da bir gün mütləq olacaq...

Bakıda keçirilən bu ədalət məhkəməsində Ermənistanın törətdiyi hərbi cinayətlər faktlarla ortaya qoyulur. Məhkəmədə dövlət ittihamçılarının Ermənistan tərəfindən aparılan təcavüzkar müharibə nəticəsində Azərbaycanın suveren ərazilərinin işğal olunması ilə bağlı cinayət əməlləri üzrə elan etdikləri epizodlara diqqət edək. Ermənistan silahlı qüvvələrinin və qanunsuz silahlı birləşmələrinin apardığı təcavüzkar müharibə nəticəsində Azərbaycanın suveren əraziləri olan 12 şəhər, 18 qəsəbə, 895 kənd, ümumilikdə 925 yaşayış məntəqəsi işğal olunub və uzun illər ərzində işğal altında saxlanılıb, bununla da xüsusi və dövlət mülkiyyətində olmuş ümumilikdə 37 min 168 əmlak üzrə 19 milyard manatdan artıq maddi ziyan vurulub.

Hərbi cinayətlər törətməkdə təqsirləndirilən erməniəsilli şəxslər barəsindəki cinayət işi üzrə ittiham aktında qeyd olunur ki, 1988-2024-cü illər ərzində Ermənistanın hərbi təcavüzü nəticəsində 3 min 493 nəfəri mülki, 15 min 357 nəfəri hərbi qulluqçu olmaqla, ümumilikdə 18 min 850 şəxs qəsdən öldürülüb. 4 min 435 nəfəri mülki, 51 min 803 nəfəri hərbi qulluqçu olmaqla, ümumilikdə 56 min 268 şəxsə müxtəlif dərəcəli bədən xəsarətləri yetirilməklə qəsdən öldürülmələrinə cəhd edilib.

## Ermənistan məsuliyyət daşıyır

Məhkəmə prosesində təqsirləndirilən Arayik Harutyunyan sərbəst ifadəsində 44 günlük müharibə ərəfəsində, eləcə də həmin müharibə dövründə baş verənlərin məsuliyyətinin birbaşa Ermənistanda, Nikol Paşinyanın üzərində olduğunu deyib. A.Harutyunyan ifadəsində 2020-ci ilin yayında və iyunun sonunda "Qarabağ ordusu"un təlimlərini müşahidə etdiyini bildirərək, təlimlərə Ermənistan ordusunun qərargah rəisi Onik Qasparyanın rəhbərlik etdiyini, habelə Azərbaycanın dərinliklərinə zərbələr endirilməsi barədə qərarların Ermənistan tərəfindən verildiyini deyib: "Yayın sonunda Qarabağa Nikol Paşinyan gəldi. Mən onu "ordu bölmələri"nə qədər müşayiət eləmişəm. O, vəziyyətlə tanış oldu. Eşidirdim, görürdüm ki, "silahlı qüvvələr"də nə baş verir. Mən "Qarabağ müdafiə komitəsi"ndən heç bir məlumat almamışdım. Situasiya barədə heç vaxt mənə heç bir məlumat verilməyib. "Ordu" üzərində mənim heç bir səlahiyyətim olmayıb. Bu, sizə də məlumdur. İttiham aktında da bu barədə yazılıb. Ermənistan mətbuatında da bu barədə dəfələrlə qeyd olunub, deyilib ki, Qarabağda olan ermənilərin təhlükəsizliyinə görə Ermənistan məsuliyyət daşıyır. Ermənistan silahlı qüvvələri, "Qarabağ müdafiə ordusu" da ora daxil idi. Deməli, Ermənistan təhlükəsizliklə bağlı məsələlərə görə məsuliyyət daşıyır".

Onun ifadəsinə görə, 44 günlük müharibə dövründə də heç bir halda müharibədə iştirak etməyib. O sadəcə, müharibənin dayandırılmasını düşünüb və Paşinyana da bu barədə deyib: "İlk günlərdən mənim Paşinyanla söhbətim ondan ibarət oldu ki, müharibə nə vaxt dayandırılacaq".

Arayik Harutyunyan Azərbaycan Prezidenti İlham Əliyevə məktub ünvanlamaq istədiyini, lakin Ermənistanın baş naziri Nikol Paşinyanın buna imkan vermədiyini də bildirib.

Sonra Arayik davam edib: "Həmin gün (2020.10.02) Azərbaycanın dərinliklərində hərbi obyektlərə zərbələr endirmək barədə qərar qəbul olunmuşdu. Raket və yaxud da artilleriya qurğularından. Əsasən siyasi hərbi vertikal "Qarabağ müdafiə ordusu"nun "qərargah rəisi"ndən başlayırdı, yuxarıdan aşağı. Levon Mnatsakanyanın bir qədər əvvəl verdiyi ifadələrdən artıq mənə aydın oldu ki, istintaqın xəbəri var ki, o, hansı səlahiyyətlərə malik idi və nə edə bilərdi. Mən bilmirdim ki, kimin hansı səlahiyyətləri var, hansı silahlardan istifadə olunmalıdır, olunacaq və sair. Mən Onik Qasparyandan soruşanda ki, bu qərarlar əsaslandırılmışdırmı, o, mənə dedi ki, bəli, Azərbaycanın hava limanları bizim əsas hədəfimizdir və biz o hədəfləri məhv etməliyik. Deyilmişdi ki, elə təəssürat yaranmalıdır, elə etməliyik ki, guya bu zərbələr Qarabağ tərəfindən endirilir".

O söyləyib ki, "Qarabağ Müdafiə Ordusu"nun "komandanı" Ermənistanın Baş Qərargah rəisinə tabe idi: "Mən "hərbi komandanı" vəzifəyə təyin və vəzifədən azad etməmişəm, çünki mənim buna səlahiyyətim olmayıb. Onilliklərlə "Qarabağ ordusu" ayrıca ordu kimi fəaliyyət göstərməyib. "Qarabağ ordusu"nun "komandanına" qarşı Ermənistanda cinayət işi başlanılıb. Əgər mənə tabe olsaydılar, ona qarşı cinayət işi Qarabağda başlanardı".

A.Harutyunyanın ifadəsindən gətirdiyimiz nümunələr bir daha göstərir ki, Ermənistanın uydurduğu "Qarabağ müdafiə ordusu" birbaşa bu ölkənin Müdafiə Nazirliyinin tabeliyində olub və onun verdiyi əmrlərə əsasən Azərbaycana qarşı silsilə hərbi cinayətlər törədib. Bu baxımdan, Arayikin etirafları böyük əhəmiyyət daşıyır və gələcəkdə Ermənistana qarşı beynəlxalq məhkəmələrdə Azərbaycan tərəfindən fakt kimi istifadə olunacaq.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 8 mart (№52).- S.14.